# Erməni vandalizminin hədd-hüdudu yoxdur




**Ermənistan silahlı qüvvələrinin 30 ilə yaxın müddətdə işğal altında saxladığı Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı rayonlar şanlı Azərbaycan Ordusu tərəfindən qarış-qarış yağılardan təmizləndikcə xalqımıza məxsus tarix və mədəniyyət abidələrinin vandalizmə məruz qaldığı, yerlə-yeksan edildiyi, bir qisminə isə toxunulmadığı, saxtalaşdırılaraq erməniləşdirildiyi aşkarlanır. Düşmənin ən çox dağıtdığı mədəni irs nümunələri sırasında isə İslam dini abidələri – məscidlər, türbələr və digər inanc yerləri daha çox diqqət çəkir. Xalqımız Ermənistan tərəfindən xüsusi əhəmiyyətə malik unikal abidələrə bu cür barbarcasına münasibəti dünya irsinə qarşı yönələn təhdid kimi dəyərləndirir.**

Rəsmi məlumata əsasən, işğal edilmiş ərazilərimizdə tarixi-dini abidələrin ümumi sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si isə ziyarətgahdır. Qəbiristanlıqların sayı isə 900-dən artıqdır.

Yeri gəlmişkən, bu günlərdə Mədəniyyət Nazirliyi tərəfindən işğaldan azad olunan rayonlarda monitorinq aparılıb və baxış keçirilən 49 obyektdən 28-nin işğalçılar tərəfindən tamamilə dağıdıldığı və yalnız qalıqlarının qaldığı aşkar edilib.

Ekspertlər bildirirlər ki, indiyədək heç bir ölkədə müharibə və ya qeyri-müharibə şəraitində dini abidələrin təhqir olunmasına, məqsədli şəkildə dağıdılmasına nadir hallarda rast gəlinib və bu erməni barbarlığı artıq bütün dünyada ciddi əks-səda doğurub.

Erməni vandalizminə məruz qalan dini abidələrimizdən biri– işğaldan azad olunan Qubadlı rayonunun Məmər kəndindəki XVIII əsrə aid məscid tamamilə dağıdılıb. Bununla yanaşı, məscid uzun illər ermənilər tərəfindən donuz tövləsi kimi istifadə edilib. Bundan başqa, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri (Şuşa), Saatlı məscidi (Şuşa) və Ağdamda Cümə məscidi barbarlığın qurbanına çevrilib, Ağoğlan (Laçın) , Xudavəng (Kəlbəcər), Gəncəsər məbədləri (Ağdərə) və digər abidələrimiz isə erməniləşdirilib.

Bütün bunlar onu göstərir ki, Ermənistan xristianlığın dəyərlərini də qorumur. Belə ki, xristian dini dəyərlərində başqalarının məbədlərinə qarşı vandalizm heç vaxt müsbət qarşılanmır. Ümumiyyətlə, düşmənin müqəddəs yerlərə qarşı bu çür çirkin hərəkətləri nə dinə, nə də insanlığa sığır.

Burada bir məqamı da xatırlatmaq istərdik. Ermənilərin bu əməlləri onlar üçün heç bir müqəddəs dəyərin olmadığını göstərir. Buna baxmayaraq, onlar çox zaman Azərbaycanı dini dözümsüzlükdə ittiham edir, həyasızcasına bizi din davası aparmaqda suçlayırlar. Halbuki Azərbaycan heç zaman din davasını gerçəkləşdirməyib. Ölkəmizin ərazisində bütün dinlərə məxsus olan abidələr dövlət səviyyəsində qorunub, məscidlərlə yanaşı, sineqoqlar tikilib, yeni kilsələr inşa edilib. Hətta Bakı şəhərinin mərkəzində erməni kilsəsi dövlət tərəfindən qorunan abidələr siyahısına salınıb. Ermənilər isə, əksinə, İslam mədəniyyətinin incisi olan məbədləri dağıdıb, regionda dini müharibə məsələsini qızışdırmağa və bu münaqişəni xristian-müsəlman qarşıdırması kimi təqdim etməyə cəhd göstəriblər.

Hazırda işğaldan azad edilən ərazilərin boşaldılması ilə əlaqədar Ermənistan tərəfindən Ağdam rayonunda illərdir aparılan qazıntılar zamanı aşkar olunan maddi-mədəniyyət nümunələrinin düşmən ölkəyə daşınılması faktı aşkarlanıb. İşğalçının digər yaşayış məntəqələrimizdə də vandal hərəkətləri müəyyənləşdirilib. Arxeoloji eksponatların oğurlanması, İrəvana aparılması təsdiqlənib.

Düşmən bununla kifayətlənməyərək, işğaldan azad edilən ərazilər boşaldılarkən, həmin yerlərdə maddi-mədəniyyət nümunələrimizi dağıtmaqla bərabər, torpaqları minalayır, işğalçı ordu hərbi hissələri dağıdır, yaşayış məntəqələrindən çıxarkən meşələri və evləri yandırır, hətta məktəblərə belə od vurmaqdan çəkinmir.

BBC telekanalının reportajına istinadla yayılan xəbərdə ermənilərin mümkün olan hər şeyi özləri ilə götürdükləri, hətta pəncərə çərçivələrini, unitazları belə apardıqları qeyd olunur.

Rus sülhməramlıları da Azərbaycanın Kəlbəcər bölgəsindən çıxmazdan əvvəl ağacları kəsən ermənilərin davranışlarından və vandalizmindən təəccübləniblər. Onlar qınama ilə ermənilərdən niyə burada təbiəti məhv etdiklərini soruşsalar da, dəqiq cavab ala bilməyiblər.

Yeri gəlmişkən, Fransanın “Le Monde” nəşrində dərc edilən “Ruhlar şəhəri” məqaləsində də erməni vandalizmindən bəhs edilir. Məqalədə deyilir: “Torpaqlarını geri qaytaran Azərbaycan Ordusunun qarşısına yalnız “ruhlar şəhəri” çıxır: mərmilərlə “şumlanmış” səngərlər, dağıdılmış qəbiristanlıqlar, minalanmış ərazilər…

Dağıntıların aşağı hissəsindəki bitkilərin içərisindən parçalanmış cəsədlərin dəhşətli qoxusu gəlir. Bir kilsənin qərb fasadı hələ də ucalmaqdadır. Bu, məhəllədə ən hündür divardır. Divarın yuxarı hissəsində dairəvi kilsə pəncərəsi olmalıdır. Amma heç kim bu məbədin hansı dini konfessiyaya aid olduğunu, hətta adını belə, dəqiq bilmir. Çünki 1993-cü il avqustun 23-dən Füzulidə heç kim yaşamır.

1989-cu ildə Sovet İttifaqının apardığı son siyahıyaalmada Dağlıq Qarabağın erməni silahlı birləşmələri tərəfindən işğalınadək Füzulidə 17 min əhalinin yaşadığını bildirilir. Bu rayonda əsasən azərbaycanlılar yaşayıblar. O zaman əhali bir həftə ərzində intensiv bombardmanlara sinə gərsə də, sonda torpaqlarından qovulublar.

Gənc azərbaycanlı zabit Natiq deyir: “Dağıntılara, aviasiya bombalarının yaratdığı xəndəklərə baxın. Yalnız dağıntılar qalıb. Əgər onlar buranı bu vəziyyətə salacaqdırlarsa, bizi niyə qovurdular?”.

Şəhər bu il oktyabrın ortalarında qızğın döyüşlərdən sonra yenidən Azərbaycanın nəzarətinə qaytarılıb. Küçənin bir küncündə sursat qutuları yığılıb qalıb. Bunlar, əsasən, minaatan mərmiləri və ermənilər tərəfindən geniş şəkildə istifadə olunan, sovet dövrünə aid “D-30” topları üçün 122 millimetrlik mərmilərin qablarıdır. Noyabrın 7-də bu mərmilərin partlayış səsi Füzulidən 10-20 kilometr aralıda, gərgin döyüşlərin getdiyi Xocavənddə, həmçinin 40 kilometr şimal-şərqdə yerləşən Şuşada (ermənilər tərəfindən “Şuşi” adlandırılır) istiqamətində eşidilməkdə idi...”.

*V.BAYRAMOV,*
*“Xalq qəzeti”*

Xalq qəzeti 2020.- 19 noyabr.- S.9.